**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**Q Ə R A R I**

**Bakı şəhəri** **№ 258/5** **16 dekabr 2014-cü il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında «Metodik Komitənin Əsasnaməsi»nin layihəsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının 2013-cü il 27 avqust tarixli 244/2 saylı «Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin işinin yenidən qurulması haqqında» qərarına müvafiq olaraq Azərbaycan Respublikasında Auditor xidmətinin inkişaf Konsepsiyasında həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin icrasının Təqvim Planının «Auditor fəaliyyətinin idarə olunması, tənzimlənməsi və auditin institusional potensialının gücləndirilməsi üzrə» II bölməsinin 6-cı «Auditin idarə edilməsi və tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi» və 12-ci «Auditor xidmətinin inkişafında və tənzimlənməsində Auditorlar Palatasının Şurası yanında Komitələrin rolunun gücləndirilməsi» bəndlərinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında «Metodik Komitənin Əsasnaməsi» təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında Metodik Komitənin rəhbərliyinə (F.Mustafayev, N.Kərimova) tapşırılsın ki, həmin Əsasnaməyə müvafiq olaraq Komitənin işini təşkil etsinlər və Komitənin funksiyalarını həyata keçirmək üçün tədbirlər görsünlər.

**3.** Bu qərarın və təsdiq edilmiş Əsasnamənin mətni Auditorlar Palatasının internet səhifəsində Azərbaycan, ingilis və rus dillərində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**